**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2010-cu il 3 noyabr tarixli 196 nömrəli, "Prokurorluq işçisinin və onun ailə üzvlərinin yeni qulluq keçmə yerinə köçməsi pulunun və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2011-ci il 11 fevral tarixli 29 nömrəli, "Fövqəladə hallar orqanları əməkdaşlarının sosial və maddi təminatı haqqında" 2011-ci il 4 may tarixli 67 nömrəli, "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli, "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in təsdiq edilməsi haqqında" 2012-ci il 17 oktyabr tarixli 234 nömrəli, "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 31 yanvar tarixli 17 nömrəli, "Tutulmuş və ya həbs edilmiş şəxslərin yemək və maddi-məişət normalarının təsdiq edilməsi haqqında" 2013-cü il 18 fevral tarixli 22 nömrəli, "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 8 may tarixli 76 nömrəli, "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2013-cü il 5 noyabr tarixli 320 nömrəli və "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"nin təsdiq edilməsi barədə" 2014-cü il 22 aprel tarixli 108 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 noyabr tarixli 196 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, 11, maddə 1031; 2013, 9, maddə 1139; 2014, 2, maddə 204, 7, maddə 903, 10, maddə 1298) ilə təsdiq edilmiş "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığorta ödənişinin təyin edilməsi üçün sənədlərin Siyahısı"nın 1.1.4-cü yarımbəndində "şəhadətnamənin" sözü "qərarın" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 11 fevral tarixli 29 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 2, maddə 156; 2013, 4, maddə 449; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 543 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Prokurorluq işçisinin və onun ailə üzvlərinin yeni qulluq keçmə yerinə köçməsi pulunun və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası"nın 11.3-cü bəndində "qrup əlil" sözləri "dərəcə əlilliyi olan" sözləri ilə əvəz edilsin.

3. "Fövqəladə hallar orqanları əməkdaşlarının sosial və maddi təminatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 4 may tarixli 67 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, 5, maddə 441; 2014, 2, maddə 213; 2017, 4, maddə 620) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Fövqəladə hallar orqanları əməkdaşları üçün qanunvericiliklə müəyyən edilmiş bəzi ödənişlərin hesablanması və ödənilməsi Qaydası" üzrə:

3.1.1. 1.4-cü bənddə "əlil olması" sözləri "əlilliyinin müəyyən edilməsi" sözləri ilə əvəz edilsin;

3.1.2. həmin Qaydaya əlavə – "Fövqəladə hallar orqanlarının xidməti vəzifələrinin icrası ilə əlaqədar həlak olmuş (vəfat etmiş), xəsarət (yaralanma, travma, kontuziya) almış, sağlamlığına digər formada zərər dəymiş əməkdaşlarına və ya onların ailə üzvlərinə birdəfəlik müavinətin müəyyən edilməsi üçün tələb olunan Sənədlər"in 2-ci hissəsi üzrə:

3.1.2.1. birinci abzasda "əməkdaşları əlillik dərəcəsi aldıqda" sözləri "əməkdaşlarının əlilliyi müəyyən edildikdə" sözləri ilə əvəz edilsin;

3.1.2.2. ikinci abzasda "təyin edilməsi haqqında (əlilliyin qrupu, səbəbi və təyin edilməsi tarixini göstərməklə) arayış" sözləri "müəyyən edilməsi haqqında qərarı" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli Əlavə "Fövqəladə hallar orqanlarının başqa yerə daimi xidmətə keçirilmiş əməkdaşlarına və onların ailə üzvlərinə yeni xidmətkeçmə yerinə köçmə xərcinin və birdəfəlik kompensasiyaların miqdarı və ödənilməsi Qaydası"nın 10.3-cü bəndində "qrup əlil" sözləri "dərəcə əlilliyi olan" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 9, maddə 939; 2015, 5, maddə 655; 2016, 9, maddə 1585; 2017, 4, maddə 620; 2018, 1, maddə 138) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nın 3.5-ci bəndində "sağlamlıq imkanları məhdud olan və ya əlil sayılan" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 10, maddə 1015; 2014, 8, maddə 1021) ilə təsdiq edilmiş "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər"in 2.9-cu bəndinin ikinci cümləsində "əlil" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 1, maddə 76; 2016, 11, maddə 1976) ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.1-ci, 1.3-cü, 2.1-ci bəndlərdə və 3.2.3-cü, 3.7.3-cü və 3.7.4-cü yarımbəndlərdə ismin müvafiq hallarında "əlillərə və sağlamlıq imkanları məhdud uşaqlar" sözləri ismin müvafiq hallarında "əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin;

6.2. 3.2.2-ci yarımbənddə "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

6.3. 3.4-cü bəndin ikinci cümləsində "Əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara" sözləri "Əlilliyi olan şəxslərə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan

Respublikasının Qanunvericilik Toplusu, 2013, 2, maddə 192, 10, maddə 1226) ilə təsdiq edilmiş 12 nömrəli Əlavə – "Müalicə müəssisələrində müalicə olunan həbs edilmiş şəxslərin gündəlik ərzaq Normaları"nın 3-cü sütununda "qrup əlillər" sözləri "dərəcə əlilliyi olan şəxslər" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 may tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 5, maddə 565; 2015, 5, maddə 656; 2017, 4, maddə 620) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nın 3.1.5-ci yarımbəndində "sağlamlıq imkanları məhdud olmuş və ya əlil sayılmış" sözləri "əlilliyi müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 11, maddə 1457; 2015, 12, maddə 1584; 2016, 11, maddə 1976) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.1.2.3-cü və 2.4.1.3-cü yarımbəndlərində "müayinə aktından çıxarış" sözləri "qərarı" sözü ilə əvəz edilsin;

9.2. 2.2.1.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.1.1.2. uşağın əlilliyini müəyyən edən TSEK-in qərarı;".

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 4, maddə 452; 2017, 4, maddə 631) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.1.2.1-ci yarımbənddə "əlillərin" sözü "əlilliyi olan şəxslərin" sözləri ilə əvəz edilsin;

10.2. mətn üzrə "fərdi iş planına" sözləri "Fərdi Reabilitasiya Proqramına" sözləri ilə əvəz edilsin;

10.3. 2.9.1.3-cü yarımbənddə "sosial adaptasiyasına" sözləri "sosial bacarıqlarının inkişafına" sözləri ilə əvəz edilsin;

10.4. 3.1.3.1-ci yarımbənddə "peşə" sözü "peşə-əmək" sözləri ilə əvəz edilsin;

10.5. 3.2.4.1-ci yarımbənddə "tibbi-sosial xarakterli" sözləri "tibbi" sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Baş naziri Novruz MƏMMƏDOV**

Bakı şəhəri, 7 mart 2019-cu il
80